# Azərbaycan normallaşma istiqamətində səylərini bundan sonra da davam etdirəcək



Xarici İşlər Nazirliyində 27 Sentyabr - Anım Gününə həsr olunmuş anım tədbiri və qanvermə aksiyası keçirilib.

XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, anım tədbirində nazirliyin rəhbər heyəti, əməkdaşları, həmçinin 44 günlük Vətən müharibəsi şəhidlərinin ailə üzvləri iştirak ediblər. Əvvəlcə Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Anım tədbirində çıxış edən xarici işlər naziri Ceyhun Bayramov müasir tariximizin ən şanlı səhifələrindən biri olan 44 günlük Vətən müharibəsi nəticəsində 30 ilə yaxın erməni işğalına son qoyulduğunu, ərazi bütövlüyümüzlə yanaşı, tarixi ədalətin və beynəlxalq hüququn bərpa olunduğunu diqqətə çatdırıb. Prezident, Müzəffər Ali Baş Komandanın rəhbərlik etdiyi Azərbaycan Ordusunun bu qəhrəmanlıq salnaməsinin tariximizə qızıl hərflərlə həkk olunduğu vurğulanıb.

Torpaqlarımızın işğalı ilə barışmayan Azərbaycanın məsələnin sülh yolu ilə həllini tapması üçün daim çalışdığı, lakin Ermənistanın danışıqların imitasiyası ilə məşğul olduğu, habelə hərbi-siyasi təxribatlarını davam etdirdiyi bildirilib. Məhz Ermənistanın növbəti təxribatına cavab olaraq başlayan 44 günlük Vətən müharibəsi dövründə də təxribatların davam etdirildiyi, xalqımızın birliyini və həmrəyliyini pozmaq məqsədilə dəfələrlə mülki əhaliyə qarşı hücumlar və müharibə cinayətləri törədildiyi qeyd olunub.

Nazir müharibənin və münaqişənin bitməsinə baxmayaraq, ölkəmizin 3 il əvvəl Ermənistana sülh təklif etdiyini, sülh prosesinin irəlilədilməsi istiqamətində səy göstərdiyini, Ermənistanın isə bunun qarşılığında yenə də 30 ilə yaxın işğal dövründəki təcrübəni təkrarladığı, sözdə ərazi bütövlüyümüzü tanıdığını bildirsə də, əməldə bunun əksinə olaraq, təxribatları və mina təhdidini davam etdirdiyini diqqətə çatdırıb. Bu xüsusda, Ermənistanın növbəti təxribatlarının qarşısının alınması üçün ölkəmizin lokal antiterror tədbirləri gördüyü, bu tədbirlər nəticəsində ərazilərimizdə 30 illik işğal dövrünün qalıqları olan qeyri-qanuni erməni silahlı qüvvələrinin varlığına son qoyulduğu, habelə ərazilərimizdəki dəhşətli hərbiləşmənin miqyasının üzə çıxdığı vurğulanıb. Ölkəmizin bundan sonra da normallaşma və sülh gündəliyinin irəli aparılması istiqamətində qətiyyətli şəkildə səylərini davam etdirəcəyi, gələcəyə baxışımızın sülh üzərində qurulduğu vurğulanıb.

Bugünkü postmünaqişə dövrünün reallıqlarının, torpaqlarımızın azad edilməsinin isə şəhidlərimizə borclu olduğumuz, onların əziz xatirəsinin daim qəlbimizdə yaşayacağı bildirilib.

Sonra 44 günlük Vətən müharibəsinə həsr edilmiş, Mədəniyyət Nazirliyinin dəstəyi ilə Bakı Media Mərkəzi və Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının birgə istehsalı olan "BİZ" tarixi-sənədli filmi nümayiş etdirilib.

Anım tədbirindən sonra Xarici İşlər Nazirliyi və Səhiyyə Nazirliyinin Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Mərkəzi Qan Bankının birgə təşkilatçılığı, XİN rəhbərliyi və əməkdaşlarının iştirakı ilə qanvermə aksiyası keçirilib.

Daha sonra Xarici İşlər Nazirliyinin rəhbər heyəti Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin tikildiyi ərazini ziyarət edib və ərazinin girişində xatirə daşının önünə gül dəstələri qoyub.

Azərbaycan. - 2023.- 28 sentyabr.- S.3.